# Daşkənddə "İlin seçimi-2022" müsabiqəsi



**Özbəkistanda keçirilən "İlin seçimi-2022" müsabiqəsində Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi də qaliblər sırasında olub.**

Daşkənddə Özbəkistan kütləvi informasiya vasitələrində geniş işıqlandırılan, öz sahələrində şəffaflığa nail olan, vətəndaş cəmiyyəti ilə səmərəli fəaliyyət göstərən dövlət və təsərrüfat idarələri, ictimai təşkilatlar arasında ənənəvi "İlin seçimi-2022" müsabiqəsinə yekun vurulub.

Tədbirdə Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, hökumət üzvləri, deputatlar, jurnalistlər, bloqerlər iştirak edib.

Qaliblər Daşkənd və vilayət hakimləri, nazirlik, komitə rəhbərləri, həmçinin jurnalistlər və bloqerlər arasından seçilib. Sosial sorğu, jurnalist və bloqerlərin rəyi əsasında keçirilən müsabiqədə "Ən nümunəvi region", "Ən nümunəvi nazirlik", "Ən fəal deputat", "İlin media lideri", "İlin ən nümunəvi mətbuat katibi" və digər nominasiyalarda qaliblərə diplomlar verilib.

Türkiyənin Özbəkistandakı səfirliyi "İlin ən yaxşı səfirliyi" adına layiq görülüb.

"İlin ən fəal mədəniyyət mərkəzi" nominasiyasında Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi qalib olub. Bununla bağlı diplom mədəniyyət mərkəzinin direktoru Samir Abbasova təqdim edilib.

**Qulu KƏNGƏRLİ,**
**Daşkənd**

Xalq qəzeti .- 2023.- 31 yanvar.- S.4.